TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASI

**ƏTRAF MÜHİT, TƏBİİ EHTİYATLAR VƏ SAĞLAMLIĞIN QORUNMASI KOMİSSİYASI**

**YEDDİNCİ İCLAS**

*Ankara, 11 may, 2022-ci il*

**"TÜRKPA ÜZVÜ DÖVLƏTLƏRİNDƏ SƏHİYYƏ SİSTEMLƏRİNİN UYĞUNLAŞDIRILMASI"**

**TÖVSİYƏ QƏRARI**

Parlament Assambleyası**:**

Sağlamlığı insanın həyat keyfiyyətinin ən mühüm elementlərindən biri və eyni zamanda TÜRKPA regionunda hər bir ölkənin inkişafında mühüm amil ***hesab edərək***;

Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən elan edilmiş, 2015-ci ilin sentyabrında BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş və qlobal tərəfdaşlığa və regional əməkdaşlığa xüsusi əhəmiyyət verən, hər bir Üzv Dövlətin səhiyyə sistemlərini inkişaf etdirmək məqsədi daşıyan, beynəlxalq təşkilatlara səmərəli və davamlı səhiyyə siyasəti həyata keçirməyə imkan verən BMT-nin Minilliyin İnkişaf Məqsədlərini (MİM) və gələcək Davamlı İnkişaf Məqsədlərini (DİM) ***dəstəkləyərək***;

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Dünya Bankı, Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) və s. kimi qlobal səhiyyə ilə məşğul olan beynəlxalq qurumların və BMT-nin ixtisaslaşmış qurumlarının fəaliyyətini ***dəstəkləyərək***;

TÜRKPA üzv dövlətlərinin də qoşulduğu və qəbul etdiyi beynəlxalq əməkdaşlığın və səhiyyə məsələləri ilə əlaqəli beynəlxalq konvensiya və qanunların əhəmiyyətini ***qeyd edərək***;

Parlamentlərin və parlamentarilərin qanunların qəbulu, büdcələrin təsdiqi, resursların səfərbər edilməsi yolu ilə səhiyyədə mühüm rol oynadığını, habelə onların vətəndaşlarına adekvat, dayanıqlı və əlçatan tibbi xidmətlərin göstərilməsi üçün ilk növbədə məsuliyyət daşıdıqlarını ***etiraf edərək***;

Türkdilli dövlətlər arasında digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də əlaqələrin daha da inkişaf etdirilməsinin və bu istiqamətdə səhiyyə sistemlərinin uyğunlaşdırılmasının zəruriliyini ***vurğulayaraq;***

Transsərhəd ərazilərdə yaşayan insanların daha yaxşı səhiyyə xidmətlərinə çıxışının vacibliyini ***vurğulayaraq*;**

Türkdilli dövlətlərin səhiyyə sistemləri və əhalinin sağlamlıq göstəriciləri arasında həm səhiyyə xidmətlərinin maliyyələşdirilməsi, həm də tibbi sığortanın tətbiqi ilə bağlı müəyyən fərqləri ***nəzərə alaraq*;**

Üzv ölkələrin parlamentləri arasında ikitərəfli və ya çoxtərəfli sazişlər əsasında əməkdaşlığın, habelə onların beynəlxalq və regional ixtisaslaşmış təşkilatlarla əməkdaşlığının səhiyyə sisteminin uyğunlaşdırılması üçün potensial mexanizm kimi qiymətləndirilməsini ***qeyd edərək***;

Assambleya TÜRKPA-ya üzv ölkələrin parlamentlərinə tövsiyə edir:

*a)* Həkimlərin və tibb bacılarının bilik və bacarıqlarının artırılması üçün birgə təlim proqramlarının *hazırlanması*;

***b)*** Üzv dövlətlərdə çalışan tibb işçilərinin digər üzv ölkələrdə dövlət və özəl tibb müəsisələrinin dəvəti əsasında müvəqqəti çalışması üçün xüsusi hüquqi rejimin formalaşdırılması və müvafiq elektron müraciət və təsdiq mexanizmlərinin *işlənilməsi;*

c) İcbari tibbi sığorta sisteminin tətbiqi üzrə üzv ölkələrin müvafiq qurumu ilə əməkdaşlığın qurulması və aidiyyəti üzrə təcrübə mübadiləsinin *aparılması;*

d) Rəqəmsal səhiyyə platformasının inkişaf etdirilməsi istiqamətində üzv ölkələrin müvafiq qurumları ilə *əməkdaşlıq edilməsi;*

*e)* Üzv dövlətlərin vətəndaşları üçün teletəbabət çərçivəsində tibbi xidmətlərin məsələlərinin hüquqi *tənzimlənməsi;*

f) Üzv dövlətlərdə yerləşən səhiyyə fondları ilə əlaqələrin qurulması, qrant layihələr üçün müvafiq qurumlarla əlaqələrin *yaradılması;*

*g)* Üzv dövlətlər ilə sağlam həyat tərzinin təbliği istiqamətində birgə sosial layihələrin *icra edilməsi*;

*h)* Mərkəzləşdirilmiş vahid ambulans sisteminin qurulması istiqamətində üzv ölkələrlə əməkdaşlığın qurulması və aidiyyəti üzrə təcrübə mabadiləsinin *aparılması*;

*i)* İlkin səhiyyə xidməti göstərən müəssisələrin (ailə sağlamlıq mərkəzləri, kənd tibb məntəqələri) təkmilləşdirilməsi və göstərilən xidmətlərin keyfiyyətinin

yüksəldilməsi istiqamətində üzv ölkələrlə əməkdaşlığın qurulması və aidiyyəti üzrə təcrübə mübadiləsinin *aparılması*;

*j)* Tibbi turizm və tibbi xidmətlərin əldə edilməsi üçün qonşu ölkələrə səfər edən transsərhəd bölgələrin sakinləri üçün güzəştli hüquqi rejimlərin yaradılması imkanlarının *genişləndirilməsi*;

*k)* Türkdilli ölkələrin dövlət qurumları tərəfindən verilmiş ali və orta tibb təhsili haqqında sənədlərin tanınması, habelə praktik həkim, orta tibb personalı və əczaçı lisenziyalarının qarşılıqlı tanınması və vahid baza əsasında yoxlanması imkanları qanunvericilikdə *təmin edilməsi*;

l) Üzv ölkələrin yerli dərman istehsalçıları üçün Türkdilli dövlətlərdə xüsusi güzəştli hüquqi rejimlərin yaradılması və dərmanların və bioloji aktiv maddələrin qeydiyyatının asanlaşdırılması üçün müvafiq mexanizmlərin qanunvericilikdə *əks etdirilməsi;*

*m)* Üzv ölkələrdə müalicə alan digər üzv ölkələrin vətəndaşlarının tibb müəsisələrində aldığı tibbi xidmətlə bağlı şikayət etmə prosedurlarının *harmonizasiyası;*

*n)* TÜRKPA üzvü ölkələri arasında müvafiq sahələrdə əməkdaşlığın digər prioritetlərinin *müəyyən edilməsi.*